**UOT 78**
**ORCID: 0009-0008-9275-629X**
**DOI: 10.52094/DLYH5370**

**Afaq Agayeva Agaibrahim qızı**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Baş müəllim**
afaqagayeva15@gmail.com

# AZƏRBAYCAN MUĞAMLARININ TƏDRİSİNDƏ ƏNƏNƏ İLƏ MÜASİRLİYİN VƏHDƏTİ

**Xülasə:** Təqdim olunan məqalə muğamların tədrisində korifey sənətkarlarımızın ənənəvi ifa tərzi ilə yanaşı müasir metodların tətbiqi məsələlərinə həsr edilmişdir. Qeyd olunur ki, muğamların tədrisində korifey sənətkarlarımızın ifa tərzi və interpretasiyaları gənc ifaçılar üçün əvəzsiz örnək olmalıdır. Müasir muğam tədrisində ənənəvi “ustad-şagird” üsulunu qoruyub saxlamaqla yanaşı, rəqəmsal platformalar, səs proqramları və not sistemindən istifadə tələbələrin həm ənənəvi qaydaları mənimsəməsinə, həm də yaradıcılıq qabiliyyətinin formalaşmasına şərait yaradacaqdır.

**Açar sözlər:** Səkinə İsmayılova, muğam, interpretasiya, Ağaxan Abdullayev, müasir üsullar, ənənə.

**GİRİŞ.** Azərbaycan xalqının milli-mənəvi dəyərləri sırasında muğamlar xüsusi yer tutur. Dərin məna çalarlarını özündə səciyyələndirən muğamlar dinləyicilərə bədii zövq verir, gənclərin estetik tərbiyəsini inkişaf etdirir, mənəvi aləmi zənginləşdirib, əxlaqi keyfiyyətləri formalaşdırır. Muğam ifaçılığında ənənə ilə müasirliyin vəhdəti bu qədim sənətin yaşamasının və inkişafının əsas şərtlərindən biridir.

Professor Ramiz Zöhrabov yazırdı: “*Muğam musiqimizin təməli, onun bünövrəsi, onun dayaq sütunudur. Muğam mahnılarımız, təsniflərimiz, oyun havalarımız, simfonik əsərlərimiz, opera və baletlərimiz üçün tükənməz və gözəl təranələr mənbəyidir. Bir sözlə muğamat, Azərbaycan musiqi dilinin, əgər təbiri düzgün başa düşülərsə, lüğət fondudur*” [Zöhrabov R., 1991, 219 səh.].

**ƏSAS MƏTN.** Muğam hissləri, emosiyaları, əhvali-ruhiyyəni, ehtirası ifadə edən ən güclü vasitə, insana daha çox təsir edən bir incəsənət növüdür. Əsrlər boyu muğamların tədrisi “ustad-şagird” ənənəsi üzərində qurulmuşdur.

Ustad şagirdinə muğam dəstgahının məqamlarını, şöbələrini və ritm quruluşunu əvvəlcə nəzəri cəhətdən izah edir, sonra isə öz ifasında nümayiş etdirir, şagird ustadın ifasını dəfələrlə dinləyərək, təkrarlayır və mənimsəyirdi. Ənənəvi təlimdə şagird əvvəlcə sadə muğam şöbələrini, sonra isə tədricən mürəkkəb dəstgahların tam strukturunu öyrənirdi. Muğam məclislərində görkəmli xanəndələrin ifasını dinləmək, onların ifa tərzini, improvizasiya qabiliyyətini, zərb ustalığını müşahidə etmək gənc xanəndələr üçün əvəzsiz təcrübə mənbəyi idi.

Muğamlarımızı tədris edərkən ənənəvi üsullarla yanaşı, korifey sənətkarlarımızın ifa tərzini nəzərdən keçirməli, onların interpretasiyalarına diqqətlə qulaq asaraq, onlardan bəhrələnməliyik. Çünki muğam sənətinin əsl mahiyyəti məhz ustad sənətkarların ifasında özünün ən parlaq təcəssümünü tapır. Onların hər biri muğamın ənənəvi qaydalarına sadiq qalmaqla bərabər, özünəməxsus interpretasiyası, səs tembri, ifa tərzi ilə bu sənətə yeni nəfəs gətirmişlər. Görkəmli muğam ifaçısı ağaxan abdullayevin tələbəsi olduğum üçün onun ifa tərzinin tədrisdə rolunu vurğulamaq istərdim. Xalq artisti Ağaxan Abdullayev çox böyük səs diapazonuna malik bir ifaçı idi. Onun ifasında muğamlar xüsusi bir gözəllik və zənginliklə interpretasiya olunurdu. Xalq arasında ona "Zil Xan" deyilməsi təsadüfi deyildi. Belə ki, onun zil səslərdəki məharəti, vokal texnikasının kamilliyi dinləyiciləri heyran edirdi. Ağaxan Abdullayevin ifa tərzini muğam tədrisində örnək kimi götürmək, onun səs aparatından istifadə metodlarını, muğam şöbələri arasında keçidlərdəki ustalığını öyrənmək gənc xanəndələr üçün əvəzsiz təcrübədir. Ağaxan Abdullayevin ifa tərzi nəinki Azərbaycanda, hətta bir sıra xarici ölkələrdə də dərin maraqla qarşılanmış, muğam sənətinin beynəlxalq səviyyədə tanınmasına və yayılmasna mühüm təkan vermişdir. Onun geniş səs diapazonu, zil səslərdəki misilsiz məharəti və orijinal vokal texnikası xarici musiqişünasların, vokal pedaqoqların və sənətşünasların diqqətini cəlb etmiş, muğamın dünya musiqi xəzinəsinə daxil edilməsi prosesində əhəmiyyətli rol oynamışdır [Muğam ensiklopediyası, 2008, s. 8-9].

İstedadlı qadın ifaçımız Səkinə İsmayılova həm ənənəvi muğam xanəndəsi, həm də opera müğənnisi kimi fəaliyyət göstərərək, bu iki fərqli vokal məktəbinin sintezini yaratmışdır. Səkinə İsmayılova Azərbaycan musiqi sənətində muğamı qavalla ifa edən ilk qadın xanəndə olmuşdur [Vahid T., 2011]. Bu fakt təkcə onun şəxsi nailiyyəti deyil, həm də Azərbaycan muğam ifaçılığı tarixində qadınların rolunun dəyişməsində mühüm bir dönüş nöqtəsidir.

Ənənəvi olaraq, muğam ifaçılığı əsrlər boyu əsasən kişi xanəndələrin hakimiyyətində olmuşdur. Qadınların muğam səhnəsinə çıxması, xüsusilə qaval kimi ritm alətini ifa zamanı özləri ilə götürməsi uzun müddət qeyri-ənənəvi hesab edilirdi. Səkinə İsmayılova qaval alətini öz interpretasiyasına daxil etməklə göstərdi ki, qadın xanəndə də bu ənənəvi alətdə ustad ola bilər. Səkinə İsmayılovanın bu təcrübəsi muğam tədrisində qadın şagirdlərə nümunə olmalıdır. O, gənc qadın xanəndələrə göstərdi ki, ənənəvi alətləri ifa etmək və muğam oxumaq qadınlar üçün də mümkündür. Səkinə İsmayılova həm də muğam ifaçılığı ilə opera sənətinin vəhdətini özünün peşəkar ifasında uzlaşdırmışdır. O, Avropa vokal məktəbinin təlimini ənənəvi muğam tərzi ilə birləşdirərək tamamilə yeni, orijinal ifa tərzi yaratmışdır. Bu birləşmə onun səs tembrini daha da zənginləşdirmiş, ifalarına dramatiklik və emosionallıq gətirmişdir. Səkinə İsmayılova Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının səhnəsində təqdim olunan muğam operalarının əksəriyyətində baş qadın partiyalarının ifaçısı kimi çıxış etmişdir. Onun yaradıcılığına Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" operasında Leyli, "Əsli və Kərəm" operasında Əsli, Şəfiqə Axundovanın "Gəlin qayası" operasında Gülbahar, Zülfüqar Hacıbəyovun "Aşıq Qərib" operasında Şahsənəm kimi əsas qadın obrazları daxildir. Həmin partiyaların ifasında peşəkarlıq nümayiş etdirən xanəndə hazırda da teatrın səhnəsində bu rolları uğurla ifa etməkdədir. Səkinə xanımın yaratdığı bu rəngarəng obrazlar mənim üçün əsl yaradıcılıq məktəbi olmuş və ifa etdiyim səhnə obrazları üzərində işləyərkən onun canlandırdığı qəhrəmanların vokal interpretasiyasını, plastik həllini və emosional çalarlarını öz yaradıcılığıma tətbiq etməyə şalışıram. Onun opera sənətinə dair metodoloji yanaşmasında canlı vokal ifasının prioritetliyi xüsusi yer tutur. Sənətkar vurğulayır: "*Səhnə məkanının akustik cəhətdən ən çətin əldə olunan nöqtəsində-auditoriyanın ən son cərgəsində əyləşən tamaşaçı belə ifaçının canlı səsini aydın eşitməlidir*" [S. İsmayılova ilə müsahibə, 2026]. Düşünürəm ki, prinsip onun pedaqoji və ifaçılıq fəlsəfəsinin təməl daşlarından birini təşkil edir.

Uzun illər korifey sənətkarımız Xalq artisti, professor Canəli Əkbərovun rəhbərlik etdiyi "Muğam sənəti" kafedrasında fəaliyyət göstərdiyim üçün onun özünəməxsus ifa tərzi, dərs keçmə metodikası və interpretasiyalarını qeyd etmək istərdim. Xanəndə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında tamaşaya qoyulan muğam operalarında bir sıra unudulmaz obrazlar yaratmışdır: Üzeyir Hacıbəyovun "Leyli və Məcnun" operasında Məcnun və İbn-Səlam, Müslüm Maqomayevin "Şah İsmayıl" operasında Şah İsmayıl, Zülfüqar

Hacıbəyovun "Aşıq Qərib" operasında Aşıq Qərib rolları onun yaradıcılıq irsinin parlaq nümunələri sırasındadır [Aydınoğlu T., 2015, s. 7].

Canəli Əkbərov beynəlxalq miqyasda da fəal qastrol fəaliyyəti ilə seçilmiş, Almaniya, Mali, Avstriya və digər xarici ölkələrdə dəfələrlə Azərbaycan muğam sənətini təmsil etmişdir. Ustad xanəndənin xüsusi məharətlə ifa etdiyi "Rast", "Şur", "Bayatı-Şiraz", "Rahab", "Dəşti" və başqa muğam dəstgahları kamil sənət nümunələri kimi milli musiqi xəzinəmizdə özünəməxsus yer tutur. Bu əsərlər onun vokal texnikasının kamilliyini, improvizasiya qabiliyyətinin zənginliyini və muğamın məqam quruluşunu dərindən mənimsədiyini sübuta yetirir. Ustadları Seyid Şuşinski və Xan Şuşinskinin ənənələrinə sadiq olan Canəli Əkbərovun ifa tərzi emosionallıq və səlis diksiya ilə xarakterizə olunur.

Müasir dövrümüzdə muğamları tədris edərkən tələbələrə korifey sənətkarlarımızın ifa tərzini aşılamaqla yanaşı müasir tədris metodlarından faydalanmaq da tövsiyə olunur. İlk növbədə muğam ifaçılığınının tədrisində tələbənin səs aparatının qurulması, nəfəs alıb-vermə texnikası, səsin düzgün çıxarılması kimi texniki məsələlərə xüsusi diqqət yetirilməlidir. Ustad xanəndələrin səsyazmalarını rəqəmsal platformalar vasitəsilə təhlil etmək, tələbələrə həm əyani nümunə, həm də müqayisə imkanı yaradır. Muğamların ənənəvi "ustad-şagird" üsulu ilə ötürülməsini qoruyaraq, eyni zamanda müasir not sistemindən istifadə etmək daha səmərəlidir. Bu üsulla tələbə həm improvizasiya bacarığını, həm də nəzəri biliklərini inkişaf etdirə bilər. Tələbələrə eyni muğamın müxtəlif ustadlar tərəfindən interpretasiyasını araşdırıb, müasir aranjimanla birləşdirərək yeni layihə hazırlamaq tapşırılmalıdır. Bu üsulla ənənəvi ifaçılıq tərzi qorunmaqla yanaşı, yaradıcılıq qabiliyyəti də formalaşdırılır. Əldə etdiyim təcrübələr və sadaladığım bu üsullar tələbələrin həm ənənəvi muğam qaydalarını dərindən mənimsəməsinə, həm də XXI əsrin dinləyici tələblərinə cavab verən çevik və müstəqil ifaçılar kimi yetişməsinə şərait yarada bilər.

**NƏTİCƏ.** Beləliklə, Azərbaycan muğam sənəti minillik ənənələrə söykənərək, daim inkişaf edir və müasirləşir. Muğamların tədrisində ənənə ilə müasirliyin vəhdəti bu sənətin yaşamasının və gələcək nəsillərə ötürülməsinin əsas şərtidir. Ənənəvi "ustad-şagird" münasibətləri, muğam məclisləri və korifey sənətkarlarımızın zəngin ifaçılıq təcrübəsi muğam tədrisinin ayrılmaz tərkib hissəsi olaraq qalır. Onların interpretasiyaları, vokal texnikası və səhnə mədəniyyəti gənc nəsil ifaçılar üçün əvəzsiz örnəkdir. Digər tərəfdən, müasir tədris metodlarının: rəqəmsal platformaların, səs proqramlarının, not sisteminin

və layihə əsaslı təlimin tətbiqi muğam tədrisinin səmərəliliyini artırır, tələbələrin həm ənənəvi qaydaları dərindən mənimsəməsinə, həm də müstəqil, yaradıcı və XXI əsrin dinləyici tələblərinə cavab verən ifaçılar kimi yetişməsinə imkan yaradır.

Nəticə etibarilə, korifey sənətkarlarımızın ifa tərzini yaşatmaqla yanaşı, müasir təhsil texnologiyalarını tədris prosesinə inteqrasiya etmək muğam sənətinin həm qorunmasına, həm də onun dünya miqyasında tanıdılmasına xidmət edir. Bu vəhdət muğam ifaçılığının gələcəyini təmin edən strateji əhəmiyyətli amildir.

## Ədəbiyyat siyahısı

1. Abdullayev Ağaxan Minaxan oğlu. Muğam ensiklopediyası. Bakı, Musiqi dünyası, 2008, s. 8-9.
2. Zöhrabov R. Muğam. Monoqrafiya. Bakı, Azərnəşr, 1991, 219 səh.
3. Vahid T. Muğamı qavalla ifa edən ilk qadın xanəndə. Mədəniyyət qəzeti. 18.02.2011
4. Aydınoğlu T. Yarım əsr milli musiqimizin xidmətində. Xalq qəzeti, 2015, 11 aprel, s.7.
5. Səkinə İsmayılova ilə canlı müsahibə. ADMİU, Muğam sənəti kafedrası, 19 mart, 2026-cı il.

**Afag Aghayeva AghaIbrahim gizi**

## THE HARMONY OF TRADITION AND MODERNITY IN THE TEACHING OF AZERBAIJANI MUGHAMS

**Summary:** This article addresses the application of contemporary teaching methods alongside the traditional performance styles of our master artists in mugham education. It emphasizes that the performance style and interpretations of our distinguished masters should serve as an invaluable model for young performers during the process of learning mughams. In modern mugham pedagogy, while preserving the traditional "ustad-shagird" (master-apprentice) approach, the integration of digital platforms, audio analysis software, and musical notation systems will facilitate students' acquisition of traditional principles as well as the development of their creative capacities.

**Key words:** Sakina Ismayilova, mugham, interpretation, Aghakhan Abdullayev, modern methods, tradition.

**Афаг Агаева Агаибрагим гызы**

## ЕДИНСТВО ТРАДИЦИИ И СОВРЕМЕННОСТИ В ОБУЧЕНИИ АЗЕРБАЙДЖАНСКИХ МУГАМОВ

**Резюме:** Данная статья посвящена вопросам применения современных методов обучения мугамам наряду с традиционной исполнительской манерой корифеев Азербайджанского музыкального искусства. Подчёркивается, что стиль исполнения и интерпретации выдающихся мастеров должны служить неоценимым образцом для молодых исполнителей в процессе освоения мугамов. В современном обучении мугамам, при сохранении традиционного метода «устад-шагирд», использование цифровых платформ, звуковых программ и нотной системы будет способствовать как овладению учащимися традиционными канонами, так и развитию их творческих способностей.

**Ключевые слова:** Сакина Исмаилова, мугам, интерпретация, Агахан Абдуллаев, современные методы, традиция.

**Məqalənin redaksiyaya daxilolma tarixi: 17.03.2026**
**Məqalənin çapa qəbul olunma tarixi: 27.03.2026**